# Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi

*Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsi* il ərzində 20 yazı çap etdirib. Onlardan 3-ü kitab, 1-i tezis, 17-si məqalədir, o cümlədən xaricdə 1 kitab, 2 məqalə çap olunub.

*Şöbənin müdiri, fil.e.d. Mahirə Quliyeva* bu ildə 3 kitab nəşr edib. "Molla Pənah Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovşağında" kitabının (Bakı, "Elm və təhsil", 2018, 218 s.) elmi məsləhətçisi və ön söz müəllifi akad. İsa Həbibbəyli, redaktoru Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, rəyçiləri dos. Səadət Şıxıyeva və dos. Hacı Siracəddindir.

Kitabda milli ədəbiyyatımızda erkən realizmin təşəkkülü və əsasları barəsində akad. İ.Həbibbəylinin Azərbaycan, rus və ingilis dilində ön sözü verilib.

M.H.Quliyevanın "Vaqif irsi xalq yaradıcılığı ilə klassik poeziyanın qovuşağında" adlı kitabında mövzu Azərbaycan, rus və ingilis dillərində geniş təhlini tapıb. Kitabda müəllifin xalq-aşıq şeiri və klassik şeir üslublarında yazmış sənətkarın erkən realizmin gəlişməsində rolu və spesifik bədii üslub keyfiyyəti barəsində araşdırmaları ifadəsini tapıb. "Введение в классическое арабо-мусульманское лите ратуроведение" kitabında isə (LAP, Riqa- Latviya. Avropa Birliyi - 2018) müəllif ərəb-müsəlman ədəbiyyatşünaslığının, o cümlədən klassik Azərbaycan ədəbiyyatının təməl məsələlərinə diqqət yetirib.

Müəllifin "Yazdım ki, izim qalsın" kitabının (Bakı, "Elm və təhsil", 2018, 104 s.) redaktoru professor Şirindil Alışanlıdır. Kitab giriş, "Klassik ədəbiyyatın həqiqi varisləri", "Mir Cəlal Paşayevin" "Gül bəsləyən qız" hekayəsinin hekayəti" hissələrindən ibarət olub, Azərbaycan və rus dillərində nəşr edilmişdir.

M.Quliyeva il ərzində 13 məqalə çap etdirib, yerli və beynəlxalq konfranslarda məruzələri olub. "Nizaminin" "Sirlər xəzinəsi və Quran" – Nizamiyə həsr edilmiş beynəlxalq konfrans (12 mart 2018, İran, Təbriz s. (407-425), "Klassik ədəbiyyatın Şərq nəzəri sistemi baxımından tədqiqinə bu günün işığından baxış", "Baku 2nd İnternational Conference of Science". Bilim evi, 1 aprel 2018, Bakı. "Подлинные наследники классической литературы", Мир литературы, N9 (133), sentyabr 2018, "Müstəqillik dönəminin tələbi və dövrləşmə konsepsiyası" – "Ədəbiyyat qəzeti", N 42, (5165), 9 noyabr 2018; "Azərbaycan ədəbiyyatşünaslığının nəzəri problemlərinə yeni baxış" - "Elm tarixi və elmşünaslıq: fənlərarası tədqiqatlar" mövzusunda birinci beynəlxalq elmi konfrans". Bakı, 29-30 oktyabr 2018.

Şöbə əməkdaşlarından *Şəfəq Maksudovanın* "Ecazkar Füzuli sənətinin Molla Vəli Vidadi yaradıcılığına təsiri", *Lalə Ələkbərovanın* "XX əsr Azərbaycan ədəbiyyatı və nəzirə" məqalələri "Azərbaycanşünaslığın aktual problemləri IX Beynəlxalq Elmi Konfransın" materiallarında çap olunub (3-4 may, Bakı, 2018). Lalə Ələkbərovanın həmçinin "Füzuli ənənələrinin Hüseyn Cavid

yaradıcılığına təsiri, “Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında Füzuli ənənələri” məqalələri də “Ədəbiyyat məcmuəsi”ndə özünə yer alıb.

Şöbənin müdiri *f.e.d. Mahirə Quliyeva* 2018-ci ildə “Tərəqqi” medalı ilə təltif olunub. O, institut müdafiə və elmi şurasının, habelə, “Poetika.izm” jurnalı redaksiya heyətinin üzvüdür.

**Hazırladı:**


**Əlizadə Əsgərli**

AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun elmi
işlər üzrə direktor müavini, filologiya
elmləri doktoru, professor

**Mahirə Quliyeva**

Erkən yeni dövr
Azərbaycan ədəbiyyatı şöbəsinin
müdiri, filologiya elmləri doktoru.